DOI: https://doi.org/10.36719/2706-6185/57/32-36

**Mehparə Əhmədova**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https//orcid.org/0000-0002-4997-3239
ehmedovamehpare69@gmail.com
**Dünya Abdullayeva**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-6453-0513
dunyaabdullayeva365@gmail.com

# Təhsil prosesində monitorinq anlayışının elmi mahiyyəti və inkişaf mərhələləri

## Xülasə

Məqalədə təhsil prosesində monitorinq anlayışının elmi mahiyyəti və inkişaf mərhələləri nəzəri baxımdan təhlil olunur. Monitorinqin çoxölçülü və dinamik xarakteri, vahid tərifinin olmaması və onun funksional, metodoloji və proqnostik aspektlərinin müxtəlif alimlər tərəfindən izahı araşdırılır. Monitorinqin ilkin nəzarət və statistik hesabat xarakterli mərhələlərdən başlayaraq analitik və proqnostik funksiyalar qazanması və idarəetmə qərarlarının elmi əsaslarla qəbul edilməsinə xidmət edən sistemli modelə çevrilməsi izah edilir.

Məqalədə həmçinin monitorinqin müasir mərhələdə təhsil keyfiyyətinin yüksəldilməsinə, proseslərin optimallaşdırılmasına və strateji idarəetməyə verdiyi töhfələr vurğulanır. Azərbaycan təhsil sistemi kontekstində isə monitorinqin inkişaf mərhələləri praktiki tətbiqlə əlaqələndirilir və onun idarəetmədə əsas alət kimi rol oynadığı göstərilir.

***Açar sözlər:*** *monitorinq, təhsil prosesi, təhsil keyfiyyəti, idarəetmə, pedaqoji proses, inkişaf mərhələləri, analitik və proqnostik funksiyalar, Azərbaycan təhsil sistemi*

**Mehpara Ahmadova**
Nakhchivan State University
PhD in Pedagogy
https//orcid.org/0000-0002-4997-3239
ehmedovamehpare69@gmail.com
**Dunya Abdullayeva**
Nakhchivan State University
Master's studies
https://orcid.org/0009-0002-6453-0513
dunyaabdullayeva365@gmail.com

# Scientific Essence and Development Stages of the Concept of Monitoring in the Educational Process

## Abstract

The article analyzes the scientific essence and development stages of the concept of monitoring in the educational process from a theoretical point of view. The multidimensional and dynamic nature of monitoring, the lack of a single definition, and the explanation of its functional, methodological, and prognostic aspects by various scientists are examined.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The acquisition of analytical and prognostic functions of monitoring, starting from the initial control and statistical reporting stages, and its transformation into a systematic model serving the adoption of management decisions on a scientific basis, are explained.

The article also emphasizes the contributions of monitoring to improving the quality of education, optimizing processes, and strategic management at the modern stage. In the context of the Azerbaijani education system, the development stages of monitoring are linked to practical application, and it is shown that it plays a role as a main tool in management.

***Keywords:*** *monitoring, educational process, educational quality, management, pedagogical process, development stages, analytical and prognostic functions, Azerbaijani education system*

## Giriş

Cəmiyyətdə baş verən davamlı və dərin sosial dəyişikliklər fonunda təhsil sisteminin bütün pillələr üzrə yenilənməsi və təkmilləşdirilməsi mühüm sosial-pedaqoji prioritet kimi ön plana çıxır. Bu baxımdan Azərbaycan təhsil sisteminin modernləşdirilməsinə yönəlmiş yanaşmalar idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini, xüsusilə də monitorinqin rolunun gücləndirilməsini əsas şərt kimi irəli sürür. Belə yanaşma idarəetmə prosesinin səmərəliliyinin yüksəldilməsini və keyfiyyət meyarlarına əsaslanan, nəticəyönümlü təhsil modelinin formalaşdırılmasını başlıca məqsəd kimi müəyyən edir. Bununla əlaqədar olaraq, təhsilin keyfiyyət anlayışının nəzəri əsaslarının sistemli şəkildə işlənməsi və monitorinqin bu keyfiyyətin təmin olunması və idarə olunmasında effektiv mexanizm kimi elmi müstəvidə araşdırılması müasir təhsil siyasətinin və idarəetmə praktikasının prioritet istiqamətlərindən birinə çevrilmişdir. Eyni zamanda, milli və beynəlxalq təhsil sistemlərinin davamlı islahatlarla zənginləşməsi kontekstində təhsilin keyfiyyətinin idarə olunması problemi aktuallığını qoruyur və hətta daha da ön plana çıxır. Bu reallıq mövcud elmi-metodoloji boşluqların aradan qaldırılmasını və təhsil idarəetməsində daha çevik və səmərəli modellərin işlənib hazırlanmasını təmin etmək məqsədilə kompleks və sistemli tədqiqatların aparılmasını zəruri edir.

Bu kontekstdə “monitorinq” anlayışının müasir təhsil nəzəriyyəsi və praktikasına gətirdiyi yenilikləri daha aydın şəkildə üzə çıxarmaq üçün, ilk növbədə, pedaqoji informasiyanın toplanması, təlim nəticələrinin sistemli izlənilməsi, onların təhlili və qiymətləndirilməsi, eləcə də əldə olunan nəticələrin sonrakı fəaliyyətlərdə tətbiqi istiqamətində tarixən formalaşmış yanaşmaların araşdırılması zəruri hesab olunur. Məhz bu təkamül prosesinin nəticəsi olaraq hazırda “monitorinq” anlayışı təhsil sahəsində ən çox işlədilən və metodoloji baxımdan əhəmiyyət kəsb edən anlayışlardan birinə çevrilmişdir (Belkin, 1998).

**Tədqiqat**

Elmi ədəbiyyatların təhlili göstərir ki, “monitorinq” anlayışı müxtəlif aspektlərdən şərh olunur və onun ayrı-ayrı funksional cəhətləri ön plana çəkilir. Məsələn, A.N.Mayorov təhsil sahəsində monitorinqi təhsil sistemi və ya onun ayrı-ayrı komponentləri haqqında informasiyanın toplanmasını, işlənməsini, saxlanmasını və ötürülməsini təmin edən, idarəetmə prosesinin informasiya təminatına xidmət göstərən kompleks mexanizm kimi səciyyələndirir. Onun yanaşmasına görə, bu sistem istənilən mərhələdə obyektin real vəziyyətini qiymətləndirməyə və perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmağa imkan verir. Tədqiqatçının “Təhsildə monitorinq” adlı əsərində monitorinq təhsil sisteminin idarə edilməsinə yönəlmiş məqsədyönlü tədbirlər kompleksi kimi təqdim olunur (Mayorov, 2005). Bu baxışa əsasən, sistem haqqında məlumatların yalnız toplanması və saxlanılması kifayət etmir; həmin informasiyanın geniş şəkildə yayılması və istifadəsi də vacibdir, çünki məhz bu mərhələ sistemin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsində həlledici rol oynayır.

Digər tərəfdən, V.İ.Zvereva təhsil monitorinqini pedaqoji sistemin inkişaf dinamikasının fasiləsiz izlənilməsini təmin edən mexanizm kimi xarakterizə edir. O, A.N.Mayorovun mövqeyi ilə səsləşərək pedaqoji sistemin fəaliyyəti barədə məlumatların təşkili, toplanması, saxlanması, emalı və paylaşılmasını monitorinq prosesinin əsas struktur komponentləri kimi dəyərləndirir (Zvereva, 2001). Beləliklə, hər iki tədqiqatçının yanaşmaları monitorinqin idarəetmənin informasiya əsaslı təşkili və pedaqoji sistemin inkişafının proqnozlaşdırılması baxımından strateji əhəmiyyətini ön plana çıxarır.

Monitorinq anlayışının izahında müxtəlif tədqiqatçılar arasında müəyyən oxşarlıqlar və fərqli yanaşmalar müşahidə olunur. Məsələn, T.V.Yaroşenko monitorinqi mahiyyət baxımından əvvəlki mövqelərə yaxın şəkildə şərh edərək onu mövcud şəraitin, gedən proseslərin və əldə olunan nəticələrin səmərəli idarə edilməsini təmin edən zəruri komponent kimi dəyərləndirir (Yaroşevko, 2022). Bu yanaşmada monitorinq idarəetmənin effektivliyini artıran funksional mexanizm kimi təqdim olunur.

Bunun əksinə olaraq, T.A.Stefanovskaya anlayışa daha fərqli mövqedən yanaşır. Onun fikrincə, monitorinq müstəqil sistem deyil; o, pedaqoji prosesin cari vəziyyətinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və gələcək inkişafının proqnozlaşdırılmasına yönəlmiş fəaliyyət formasıdır (Stefanovskaya, 2002). Bu baxış monitorinqi daha çox prosesual və analitik fəaliyyət kimi xarakterizə edir.

V.İ.Andreev isə monitorinqi sistemli diaqnostika kimi izah edərək əvvəlki yanaşmaları müəyyən mənada ümumiləşdirir və onu elmi əsaslara söykənən kompleks qiymətləndirmə mexanizmi kimi təqdim edir (Andreev, 2001).

Digər tərəfdən, Y.A.Şixov monitorinqi pedaqoji sistemin vəziyyəti və inkişaf dinamikası haqqında məlumatların elmi prinsiplər əsasında fasiləsiz şəkildə toplanmasını, saxlanmasını, emalını və interpretasiyasını təmin edən mexanizm kimi səciyyələndirir (Şıxov, 2022).

Beləliklə, müxtəlif müəlliflərin mövqeləri monitorinqin həm idarəetmə aləti, həm analitik fəaliyyət, həm də sistemli diaqnostika mexanizmi kimi çoxşaxəli mahiyyətini ortaya qoyur.

Pedaqoji ədəbiyyatda "monitorinq" anlayışı vahid təriflə məhdudlaşmır; əksinə, müxtəlif elmi yanaşmalar çərçivəsində fərqli formalarda izah olunur və hər bir tərif bu mürəkkəb anlayışın müəyyən aspektini əks etdirir. Buna görə də təqdim edilən mövqelərdən hər hansı birinin nəzərdən kənarda qalması monitorinqin çoxölçülü və çoxfunksiyalı mahiyyətinin tam şəkildə anlaşılmasına maneə yarada bilər (Malenkova, 2007).

Son illərdə pedaqoji sistemlərin idarə olunması problemlərinə marağın artması da məhz bu çoxşaxəli yanaşma zərurəti ilə bağlıdır. Müasir mərhələdə funksional idarəetmə sistemlərinin mövcud konsepsiya və modellərinin təhlili, eləcə də idarəetmə sahəsində əldə edilmiş yeni elmi, pedaqoji və metodoloji yanaşmaların nəzəri və praktik müstəvidə tətbiqi xüsusi aktuallıq qazanmışdır. Bu istiqamətdə aparılmış araşdırmalar A.S.Belkin, V.P.Bespalko, Y.A.Konarjevski, V.S.Lazarev, A.M.Moiseyev, V.S.Pikelnaya, M.M.Potaşnik, V.P.Simonov, P.İ.Tretyakov və T.İ.Şamova kimi alimlərin əsərlərində geniş şəkildə işıqlandırılmışdır.

Bununla yanaşı, təhsil sahəsində monitorinqin təşkili problemlərinin araşdırılması da xüsusi elmi əhəmiyyət daşıyır. Bu istiqamətdə V.A.Kalney, A.N.Mayorov, D.Ş.Matros, N.N.Melnikova, D.M.Polev, S.E.Şişov və digərlərinin tədqiqatları mühüm yer tutur.

Məsələyə konseptual yanaşan P.İ.Tretyakov monitorinqi təhsil sistemində pedaqoji prosesi öyrənmək üçün tətbiq edilən metod kimi qiymətləndirir və onu idarəetmə sisteminin informasiya təminatı strukturunun əsas komponentlərindən biri hesab edir (Tretyakova, 2007). Bu mövqe monitorinqin həm tədqiqat, həm də idarəetmə aləti kimi funksionallığını ön plana çıxarır.

Digər tərəfdən, A.S.Belkin təhsil monitorinqini pedaqoji prosesin vəziyyətinin və inkişaf dinamikasının davamlı, elmi əsaslara söykənən və proqnostik xarakter daşıyan izlənilməsi kimi müəyyənləşdirir. Onun fikrincə, belə bir izləmə mexanizmi təhsil məqsəd və vəzifələrinin, eləcə də onlara nail olmaq üçün optimal vasitələrin düzgün seçilməsinə xidmət edir (Bespalko, 1996).

A.O.Mehrabov və İ.A.Cavadov təhsil prosesində monitorinq anlayışının "müəyyən prosesin dinamikasını öyrənmək, real və ilkin vəziyyətin uyğunluğunu müəyyən etmək məqsədilə daimi müşahidə aparmaq və ya insan fəaliyyəti ilə əlaqədar ətraf mühitdə baş verən dəyişiklikləri müşahidə etmək, qiymətləndirmək və proqnozlaşdırmaq sistemi" kimi təsvir edirlər (Mehrabov və Cavadov, 2007, s. 18). Bu yanaşma monitorinqin yalnız məlumat toplamaq funksiyası ilə məhdudlaşmadığını, eyni zamanda proseslərin analizini, qiymətləndirilməsini və gələcək inkişafın proqnozlaşdırılmasını əhatə etdiyini göstərir.

M.Mərdanov, R.Ağamalıyev, A.Mehrabov, T.Qardaşov isə "Təhsil sistemində monitorinq və qiymətləndirmə" adlı dərs vəsaitində monitorinqi təhsil sisteminin və ya onun ayrı-ayrı komponentlərinin fəaliyyətinin və inkişafının məqsədyönlü, xüsusi təşkil olunmuş və davamlı şəkildə

izlənməsi kimi izah edirlər (Mərdanov və b., 2003, s. 13). Onların yanaşmasına görə, monitorinq yalnız məlumatların toplanması ilə kifayətlənmir; toplanmış informasiyanın təhlili və pedaqoji proqnozlar əsasında vaxtında və adekvat idarəetmə qərarlarının qəbul edilməsi onun əsas funksiyalarından biridir.

Beləliklə, müxtəlif alimlərin irəli sürdükləri yanaşmalar monitorinqin yalnız bir istiqamətlə məhdudlaşmadığını, əksinə, onun metodoloji əsasları, idarəetmə funksiyaları və proqnostik imkanlarını özündə birləşdirən çoxşaxəli və inteqrativ mahiyyətə malik olduğunu aydın şəkildə göstərir. Məhz bu çoxölçülü xarakter monitorinq anlayışının tarixi inkişaf trayektoriyasını izləməyi və onun məzmununda baş verən dəyişiklikləri mərhələli şəkildə təhlil etməyi zəruri edir.

Monitorinqin tarixi inkişaf dinamikasına baxdıqda görünür ki, bu anlayış zamanla həm məzmun, həm də funksional baxımdan əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Onun formalaşmasının ilkin mərhələsində monitorinq əsasən məktəb və ali təhsil müəssisələrində nəzarət və statistik hesabat xarakteri daşıyırdı; bu dövrdə diqqət faktların toplanması, göstəricilərin sistemləşdirilərək qeydə alınması və onların normativ tələblərlə müqayisəsinə yönəlmişdi. Nəticədə monitorinqin funksiyası mövcud vəziyyətin təsviri və hesabatlılığın təmin olunması ilə məhdudlaşırdı və onu əsasən inzibati nəzarət aləti kimi xarakterizə etməyə əsas verirdi.

Zaman keçdikcə cəmiyyətin mürəkkəbləşməsi və təhsil sistemində baş verən dəyişikliklər monitorinqə olan tələbləri genişləndirdi. Bu, ikinci inkişaf mərhələsinin formalaşmasına gətirib çıxardı; bu mərhələdə monitorinq sadəcə məlumatların toplanması ilə kifayətlənməyərək onların analitik emalını da əhatə etməyə başladı. Toplanmış informasiyanın sistemləşdirilməsi, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi, keyfiyyət göstəricilərinin təhlili və nəticələrin qiymətləndirilməsi monitorinq fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Beləliklə, monitorinq passiv müşahidə vasitəsindən aktiv analitik mexanizmə çevrildi (Şıxov, n.d.).

Müasir mərhələdə isə monitorinq daha geniş və strateji funksiyalarla zənginləşmişdir. O, yalnız mövcud vəziyyəti qiymətləndirmir, həm də inkişaf meyillərini müəyyənləşdirir, potensial riskləri öncədən aşkarlayır və idarəetmə qərarlarının elmi əsaslarla qəbulunu təmin edir. Bu mərhələdə monitorinq informasiya təminatı, analitik təhlil və proqnozlaşdırma funksiyalarını birləşdirən kompleks və inteqrativ sistem kimi çıxış edir. Onun əsas məqsədi təhsil prosesinin keyfiyyət göstəricilərinə uyğunluğunu müəyyən etməklə yanaşı, gələcək inkişaf istiqamətlərini proqnozlaşdırmaq və idarəetmənin effektivliyini artırmaqdır.

Respublika təcrübəsinə baxdıqda görünür ki, monitorinqin inkişaf mərhələlərində onun funksiyaları mərhələli şəkildə dəyişmişdir. İlkin dövrdə monitorinq əsasən nəzarət və statistik hesabat xarakteri daşıyırdı; bu zaman əsas diqqət məlumatların toplanması, göstəricilərin qeydə alınması və normativ tələblərlə müqayisəyə yönəlmişdi. Azərbaycan təhsil sistemində bu mərhələyə uyğun olaraq məktəb və ali təhsil müəssisələrinin fəaliyyətinə dair əsas göstəricilər toplanır, hesabatlar hazırlanır və idarəetməyə təqdim edilirdi. Beləliklə, bu yanaşma monitorinqi daha çox inzibati nəzarət mexanizmi kimi səciyyələndirir və qərarqəbuletmədə onun proqnostik funksiyasını məhdudlaşdırır.

Zaman keçdikcə monitorinq analitik xarakter qazanmağa başladı. Toplanmış məlumatların sistemli təhlili, səbəb-nəticə əlaqələrinin araşdırılması və nəticələrin qiymətləndirilməsi onun əsas funksiyalarına çevrildi. Azərbaycan təhsil sistemində bu mərhələyə uyğun olaraq kurikulumların təkmilləşdirilməsi, müəllimlərin və tələbələrin fəaliyyətinin qiymətləndirilməsi, həmçinin tələbə nailiyyətlərinin sistemli təhlili həyata keçirildi. Beləliklə, monitorinq artıq yalnız məlumat toplama funksiyası ilə məhdudlaşmayaraq idarəetməyə elmi əsaslı dəstək verən mexanizm kimi çıxış etməyə başladı (Matros və b., 1999).

Müasir dövrdə monitorinq proqnostik və strateji məzmun qazanmışdır. Bu mərhələdə onun funksiyaları yalnız mövcud vəziyyətin qiymətləndirilməsi ilə məhdudlaşmır, həm də təhsil prosesinin gələcək inkişaf istiqamətlərini müəyyən edir və idarəetmə qərarlarının elmi əsaslarla qəbulunu təmin edir. Azərbaycan təhsil sistemində bu mərhələyə uyğun olaraq Təhsil Nazirliyi tərəfindən həyata keçirilən akkreditasiya və qiymətləndirmə proqramları, beynəlxalq PISA və TIMSS qiymətləndirmələrində iştirak, həmçinin təhsil siyasətinin hazırlanması üçün məlumatların sistemli toplanması və təhlili monitorinqin strateji və proqnostik funksiyalarını ön plana çıxarır.

## Nəticə

Aparılmış nəzəri təhlil göstərir ki, təhsil prosesində monitorinq mürəkkəb, çoxölçülü və dinamik xarakter daşıyır. Elmi-pedaqoji ədəbiyyatda onun vahid və universal tərifi hələ formalaşmayıb; müxtəlif tədqiqatçılar monitorinqi həm sistemli məlumat toplama və təhlil mexanizmi, həm idarəetmənin səmərəliliyini təmin edən strateji vasitə, həm də pedaqoji inkişafın proqnozlaşdırılması aləti kimi təqdim edirlər. Bu yanaşmalar göstərir ki, monitorinq yalnız nəzarət funksiyası ilə məhdudlaşmır, eyni zamanda təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edən məqsədyönlü və kompleks idarəetmə mexanizmi rolunu oynayır.

Monitorinqin tarixi inkişafı göstərir ki, o, ilkin mərhələdə sadəcə nəzarət və hesabat vasitəsi olsa da, zamanla analitik, proqnostik və strateji funksiyalarla zənginləşmiş, təhsil prosesində keyfiyyətin yüksəldilməsi, inkişaf meyillərinin müəyyənləşdirilməsi və idarəetmənin effektivliyinin təmin olunması üçün əsas alətə çevrilmişdir.

Azərbaycan təhsil sistemi kontekstində isə bu mərhələlər praktik olaraq özünü göstərir: ilkin dövrdə monitorinq əsasən məlumatların toplanması və hesabat hazırlamaqla məhdudlaşırdı, sonrakı mərhələdə onun analitik və qiymətləndirici funksiyaları məktəb və ali təhsil müəssisələrinin fəaliyyətinin davamlı təhlili ilə genişləndi, müasir mərhələdə isə monitorinq strateji qərarların verilməsində, təhsil keyfiyyətinin yüksəldilməsində və gələcək inkişafın proqnozlaşdırılmasında əsas rol oynayır.

## Ədəbiyyat

1. Andreev, V. I. (2001). Təhsilin keyfiyyətinin pedaqoji monitorinqi problemləri. *Rusiya Elmlər Akademiyasının Xəbərləri*, (*1*), 37.
2. Belkin, A. S. (1998). *Təhsil prosesinin pedaqoji monitorinqi* (3-cü buraxılış). Şadrinsk Pedaqoji İnstitutu Nəşriyyatı.
3. Bespalko, V. P. (1996). Təhsilin keyfiyyətinin monitorinqi — təhsilin idarə edilməsi vasitəsi. *Təhsil dünyası*, (*2*), 31–38.
4. Malenkova, L. I. (2007). Təhsil müəssisəsində təhsil prosesinin monitorinqi modeli. (*8*), 4–5.
5. Mardanov, M., Ağamalıyev, R., Mehrabov, A., & Qardaşov, T. (2003). *Təhsil sistemində monitorinq və qiymətləndirmə*.
6. Matros, D. Ş., Polev, D. M., & Melnikova, N. N. (1999). *Yeni informasiya texnologiyalarına və təhsil monitorinqinə əsaslanan təhsil keyfiyyətinin idarə edilməsi*. Rusiya Pedaqoji Cəmiyyəti.
7. Mayorov, A. N. (2005). *Təhsildə monitorinq*. İntellekt Mərkəzi.
8. Mehrabov, A. O., & Cavadov, İ. A. (2007). *Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə*. “Azmaşkom-Tex” Ltd. MMC.
9. Şişov, S. E., & Kalney, V. A. (1998). *Məktəbdə təhsilin keyfiyyətinin monitorinqi*. Rusiya Pedaqoji Agentliyi.
10. Şıxov, Y. A. (n.d.). *İxtisaslaşmış Məktəb-Universitet sistemində tələbə hazırlığının hərtərəfli keyfiyyət monitorinqinin dizaynı və tətbiqi*. https://www.dissercat.com/content/proektirovanie-i-realizasiya-kompleksnogo-kvalimetricheskogo-monitoringa-podgotovki-obuchay/read
11. Stefanovskaya, T. A. (2002). *Sinif müəlliminin pedaqoji monitorinqi və dizayn fəaliyyəti*. İrkutsk Təhsil İşçilərinin Təkmilləşdirilməsi İnstitutu.
12. Tretyakova, T. V. (2007). Riyaziyyat üzrə vahid dövlət imtahanının nəticələrinin monitorinqi və onun regionda və təhsil müəssisəsində istifadəsi. *Təhsil məsələləri*, (*2*), 188–200.
13. Yaroşevko, T. V. (n.d.). *Progimnaziyanın tədris prosesində pedaqoji monitorinq*. https://www.dissercat.com/content/pedagogicheskii-monitoring-v-obrazovatelnom-protsesse-progimnazii/read
14. Zvereva, V. I. (2001). *Məktəb təhsil proqramı: Strukturu, məzmunu, inkişaf texnologiyası*.

Daxil oldu: 19.11.2025
Qəbul edildi: 26.02.2026